# Qubada könüllülər üçün təlim-düşərgə keçirilib

**Gənclər və İdman Nazirliyinin və "Femida Könüllüləri" Təşkilatı İctimai Birliyinin birgə təşkilatçılığı ilə Quba rayonunda "Azərbaycan Könüllülük Həftəsi 2025" çərçivəsində genişmiqyaslı təlim-düşərgə həyata keçirilib.**

İctimai birlikdən verilən məlumata görə, düşərgənin əsas məqsədi gənclərin hüquqi biliklərinin artırılması, praktiki bacarıqlarının inkişaf etdirilməsi, həmçinin komandada işləmək vərdişlərinin gücləndirilməsindən ibarət olub.

Təlim-düşərgə müddətində iştirakçılar üçün "Vətən müharibəsinin hüquqi aspektləri", "Məhkəmə çəkişmələri", "Liderlik və effektiv komanda quruculuğu", "Münaqişə şəraitində beynəlxalq hüququn tətbiqi və insan hüquqlarının müdafiəsi", "Zəfərə gedən yol", "Gənc hüquqşünasların inkişafında könüllülüyün rolu" mövzularında panel müzakirələr, maarifləndirici sessiyalar və "Legal Ring" adlı intellektual oyun təşkil edilib.

"Vətən müharibəsinin hüquqi aspektləri" mövzusunda paneldə politoloq, Təhsil Problemləri İnstitutunun direktor müavini Fuad Çıraqov və hüquq üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin müəllimi Pərviz Həsənov çıxış ediblər.



"Yaşatmağı bacararaq!" adlı sessiyada "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Tünzalə Abdüləlimova övladı şəhid Miqdad Abdüləlimovun döyüş yolundan bəhs edib, həmçinin şəhidlərin Vətən qarşısında göstərdikləri misilsiz qəhrəmanlıqdan və bu müqəddəs irsin yaşadılmasının vacibliyindən danışıb.

"Məhkəmə çəkişmələri" mövzusunda panel müzakirəsində Quba Rayon Məhkəməsinin hakimi Nigar Xəlilova və Vəkillər Kollegiyasının üzvü, vəkil Aydan Rəhimli iştirak ediblər.

"Liderlik və effektiv komanda quruculuğu" mövzusunda paneldə "ASAN İnnovativ İnkişaf Mərkəzi"nin rəhbəri Aysel Cəbrayılova və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Böyükxanım Babayeva təlimçi qismində yer alıblar.

"Zəfərə gedən yol" panelində Vətən müharibəsinin qaziləri Əhliyyət Mehdiyev, Rahil Xəlilov, Aslan Cəfərov və Mahur Həmidov çıxış ediblər.

"Gənc hüquqşünasların inkişafında könüllülüyün rolu" sessiyasında Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Ədilov iştirak edib və karyera inkişafında könüllülüyün əhəmiyyəti barədə məlumat verib, həmçinin iştirakçılara kitab bağışlayıb.

"Legal Ring" intellektual oyunu iştirakçıların hüquqi biliklərini praktiki şəkildə sınamaq və komandalar arasında rəqabət mühiti yaratmaq məqsədi daşıyıb.

Sessiyalar zamanı gənclər müharibə hüququ, məhkəmə prosesləri, hüquqi prosedurlar, tərəflərin mövqelərinin müdafiəsi kimi mövzular üzrə nəzəri biliklər qazanıb, interaktiv sual-cavab formatında müzakirələr aparıblar. Həmin tədbirlər iştirakçıların hüquqi düşüncə qabiliyyətini inkişaf etdirməklə yanaşı, onların analitik yanaşma və problem həlletmə bacarıqlarını da gücləndirib.

Azərbaycan. - 2025.- 13 dekabr (№263).- S.9.